CƏMŞİD ƏMİROV

# ŞƏHƏR YATARKƏN

(povestlər)

- Mənim əsl məhəbbətim
- Şəhər yatarkən

qanun nəşriyyatı

“Sahil əməliyyatı”, “Qara volqa”, “Brilyant məsələsi” kimi maraqlı əsərləri ilə xatırlanan, “Azərbaycanfilm”in istehsalı olan “İstintaq davam edir” bədii filminin ssenari müəllifi kimi yadda qalan Cəmşid Əmirovun “Şəhər yatarkən” kitabına müəllifin eyni adlı povesti ilə yanaşı, II Dünya müharibəsindən sonrakı illərdə Almaniyada çalışan azərbaycanlı çekistin həyatından bəhs edən “Mənim əsl məhəbbətim” povesti də daxil edilib. Hər iki əsərdə ötən əsrin kriminal və siyasi tablosu, müxtəlif tipli insan xarakterləri, köhnə Bakı mənzərələri öz əksini tapıb.



# Mənim əsl məhəbbətim

# LAL-KAR GƏNC

Bakı-Tbilisi qatarının yola düşməsinə beş dəqiqə qalmış Bakıdan gedənləri yola salanlar yavaş-yavaş vaqonları tərk etməyə başladılar. Az sonra onlar qatarın yanında duraraq vaqonların pəncərələrindən boylanan sərnişinlərlə şirin söhbətə qoşuldular. Kimi yola düşənlərlə vidalaşır, kimi isə onlara son sözlərini deməyə tələsirdi.

Bu zaman vağzalda qəşəng bir gənc göründü. İyirmi üç-iyirmi dörd yaşı olardı, ucaboy, sağlambədənli, göygöz bir gənc idi. Yumşaq sarışın saçı, mərcan kimi bir-birinin yanına düzülmüş ağ dişləri, qalın qaşları və çox cazibədar siması var idi. Geniş alnı və yumruq kimi irəli çıxmış kəsik çənəsi onu möhkəm iradəli adamlara bənzədirdi. Çox sadə geyinsə də, pambıq parçadan tikilmiş yaxası açıq köynəyi və qara şal parçadan şalvarı ona çox yaraşırdı. Sol əlində qəhvəyi rəngli balaca çamadan tutub, yaşıl çantasını çiynindən asmışdı. Bu gəncin əsl adı Ervin, familiyası Ekkert idi. Bakıya isə Qərbi Almaniyanın Ştutqart şəhərindən başqa ad və familiya ilə gəlmişdi.

Ervin vağzaldakı izdihama ötəri nəzər saldı, sonra perronda divardan asılmış saata baxdı. Üç dəqiqədən sonra qatar yola düşməli idi. Ervin vağzaldakı camaata heç bir əhəmiyyət vermədən yeddi nömrəli plaskart vaqona yaxınlaşdı. Biletini yol bələdçisinə göstərdi, dərhal vaqona qalxıb üçüncü kupeyə girdi. Kupedəki sərnişinləri təmiz rus dilində salamladı, asanlıqla on iki nömrəli yeri tapdı. Dərhal yuxarı qalxdı, çantasını başının altına qoydu, çamadanını divara söykədi, ayaqqabılarını isə çıxarmağı belə lazım bilməyib, yerində uzandı.

Qatar yola düşən kimi Ervin xoruldamağa başladı. Kupenin sərnişinləri elə bildi ki, yəqin cavan oğlan bərk yorulduğundan belə tez yuxuladı. Halbuki o yatmamışdı, yatmaq fikrində də deyildi. Ervin yalandan xoruldaya-xoruldaya yarıqapalı kirpiklərinin altından sərnişinlərə göz qoyurdu, yolçuların hər bir hərəkətini diqqətlə izləyir, hər dəfə qapı açılıb-örtüləndə diksinir, bu zaman şalvarının sağ cibindəki tapançanın dəstəyini əlilə bərk-bərk sıxırdı.

Qatar Biləcəri stansiyasını keçəndən sonra vaqon bələdçisi kupeyə gəldi. Sərnişinlərdən biletləri alıb yığdı. Bələdçi Ervinə müraciət etdikdə o, özündən nə istənildiyini anlamırmış kimi əvvəl özünü itirdi, lakin sonra məsələni başa düşüb, guya yuxudan oyadıldığı üçün narazı qaldığını bildirən tərzdə gileyləndi. Heç bir söz demədən köynəyinin cibindəki bileti çıxardıb bələdçiyə uzatdı, sonra yenə uzanıb özünü yatırmış kimi göstərdi.

Ervin bu qayda ilə üç saat yol yoldaşlarına və tez-tez kupenin yanından keçən başqa adamlara göz qoydu. O, yalnız gecədən xeyli keçdikdən sonra yuxuya getdi. Yuxuda Ervin doğma vətəni izdihamlı Ştutqart şəhərini, anası frau Fridanı, bir də onu buraya, Sovet Azərbaycanına göndərən ges-

taponun rəisi Roynqard Heydrixi gördü. Ervin bir də səhər tezdən, qatar Yevlax stansiyasına yaxınlaşıb, dayanan zaman yuxudan ayıldı. Kim bilir, əgər qatar çox dayanmasaydı, bəlkə də Ervin heç burada da ayılmaz, mənzil başınadək yatardı. Başqa sərnişinlər kimi onu da yuxudan qatarın stansiyada uzun müddət dayanması ayıltmışdı. Qatarın dalbadal hərəkətdə olmasına alışmış Ervin yerindən hövlnak qalxdı, başqa sərnişinlərə nisbətən daha artıq nigarançılıqla qatarın dayanmasının səbəbini öyrənməyə çalışdı. Faşist Almaniyasından gizli olaraq Sovet İttifaqına gələn gündən bəri, hər addımda qorxu keçirən, onunla qarşılaşan hər bir sovet adamını çekist sayaraq dəfələrlə rəng verib-rəng alan Ervin Ekkert belə zənn etdi ki, qatarı məhz elə onun özünü tutmaq üçün burada saxlayıblar. "İndi yəqin vaqonları bir-bir gəzib məni axtarırlar" – deyə düşünən Ervin dərhal şeylərini qapıb kupedən çıxmağa, qatarı tərk etməyə hazırlaşdı.

Bu zaman yol yoldaşlarından biri rus dilində ona müraciət etdi:

– Siz də Yevlaxa gedirsiniz?

– Xeyr, necə məgər?

– Hələ stansiyaya çox qalıb.

Ervin ehtiyatla soruşdu:

– Bəs onda qatar nə üçün dayanmışdır?

– Gecə bu tərəflərdə bərk yağış yağdığından dəli Kür yenə də daşıb, dəmir yolunu su basıb. İndi təmir edirlər. Siz yatmışdınız, bu barədə radio ilə sərnişinlərə xəbərdarlıq edildi. Qatar azı üç saat dayanacaqdır.

– Mən isə başqa şey düşünürdüm.

– Nə?

Ervin ağlına gələn ilk fikri dedi:

– Dedim yəqin qatarı adam basıb.

– Xeyr, dostum. Bir siqaret verin çəkim.

– Mən papiros çəkmirəm.

– Adınız nədir?

– Nəyinizə gərəkdir?

– Kupemizdə gedən bu iki qadınla heç bir söz danışmaq mümkün deyil. Çox forslanırlar. Tək darıxıram. Gəlin birlikdə tanış olaq. Mən aqronomam. Adım…

– Mənim üçün belə tanışlığın əhəmiyyəti yoxdur… – deyə Ervin aqronomun sözünü kəsdi. – Onsuz da bir azdan ayrılacağıq. Bir də təsadüfi tanışlığı sevmirəm.

– Deməli, siz də bu qadınlar kimi forslusunuz? – deyə aqronom azərbaycanca dilləndi.

– Nə dediniz? – deyə Ervin rusca soruşdu.

– Sizə aid deyil, – deyə aqronom hələ də çamadanı əlindən yerə qoymayan Ervini diqqətlə süzüb, narazılıqla çiyinlərini çəkdi, etinasızlıq göstərib arxasını ona çevirdi və pəncərənin yanında əyləşən qadına bir neçə sual verdi.

Ervin ömründə ilk dəfə idi Azərbaycan dilini eşidirdi. Ona elə gəldi ki, bu kişiylə qadın onun haqqında danışırlar. O, diqqətlə söhbətə qulaq asıb, onların nə danışdıqlarını öyrənməyə çalışdı. Ancaq heç nə başa düşmədi. Kişiylə qadının söhbətində bircə söz – “yaxşı” sözü Ervinə tanış gəldi. Ervin bu sözün mənasını da başa düşdü. Ancaq “yaxşı” sözünü harada eşitdiyini yadına sala bilməyib, bir neçə dəfə öz-özünə təkrar etdi.

Qatar Yevlax stansiyası yaxınlığında dayanandan bəri daxilində daima həyəcan keçirən, üzdən isə bunu büruzə verməyən Ervin üç saat sonra qatar yenidən yola düşən zaman rahatlana bildi. Qatarın gecikməsi dəmiryolçularla bərabər bütün sərnşinlərin narazılığına səbəb olmuşdu. Ervin isə bir çox qorxulu dəqiqələr keçirsə də, indi sevinirdi.